**Azərbaycan.** - 2024.- 9 iyul. - № 141. - S. 11.

# Abşeron qonaqlarını bol günəşi və yeni yaşıllıqları ilə qarşılayır

**Akif Əliyev**

**Bir neçə aydan sonra ölkəmiz BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edəcək. İndi bu möhtəşəm tədbirə hazırlıq özünün fəal mərhələsinə qədəm qoyub.**

Əslində, Azərbaycanın COP29-a sədrlik etməsi və 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi məntiqcə bir-birini çox tamamlayır. Hər yanda aparılan abadlıq və yaşıllaşdırma işləri isə bunların hər birinə töhfədir. Bu baxımdan Abşeron rayonunda da fəallıq müşahidə olunur.

Elə bu yaxınlarda Abşeron rayonunun Xırdalan şəhərində yerləşən Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında növbəti abadlıq tədbirləri həyata keçirilib. Rayon icra hakimiyyəti tərəfindən parkın ərazisində 2000 kvadratmetrə yaxın sahədə qazon əkilib, mövcud olan yaşıllıqlara lazımi aqrotexniki qulluq göstərilib. Bundan əlavə, parkda ümumi iməclik keçirilib, ərazi yaşıllıqlar arasında baş qaldıran alaq otlarından təmizlənib.

Qeyd edək ki, Abşeronda yaşıllaşdırma tədbirləri mütəmadi xarakter alıb. Ötən aylarda da rayonun ayrı-ayrı yerlərində, eləcə də yol kənarlarında geniş yaşıllaşdırma aparılıb. Budəfəki tədbirlər çərçivəsində yol kənarlarında ümumilikdə 1000-dən çox müxtəlif növ ağac əkilib. Yeni əkilmiş ağaclar suvarılıb, onlara üzvi gübrə verilib və lazımi aqrotexniki qulluq göstərilib.

Təmizlik və abadlıq da diqqət mərkəzindədir. Belə ki, rayonun Abadlıq və Kommunal Xidmətlər İdarəsinin işçiləri küçə və parklarda ümumi səliqə-sahman yaradıb, ağacların gövdələrini ağardıblar. Rayonun Saray, Mehdiabad, Masazır, Novxanı və digər qəsəbələrində yolların kənarına yeni ağaclar əkilib, onların becərilməsi əlaqədar təşkilatlar tərəfindən nəzarətə götürülüb.

Bir məqamı da vurğulayaq ki, abşeronlular bu xeyirxah əməlləri ilə həmçinin torpaqlarımızın azadlığı uğrunda həyatını qurban vermiş oğulların xatirəsinə ehtiramlarını ifadə edirlər. Şəhidlərin adına çəkilmiş bulaqların ətrafında, eləcə də onların yaşamış olduğu küçə və məhəllələrdə yenə təzə ağaclar və güllər əkilib.

Hazırda eyni tədbirlər rayon mərkəzinin təmir ediləcək küçələrində, orta məktəblərin qarşısında və həyətində də həyata keçirilir. Yaşıllıqların artırılması məqsədilə rayonun Sumqayıt istiqamətindəki yollarında da müxtəlif növ ağaclar əkilib. Yaxşı qulluq göstərildiyindən hazırda bu ağaclar böyüyüb qol-budaq atmaqdadır.

Abadlıq işləri həmçinin Ceyranbatan qəsəbəsini, Mehdiabad, Saray, Masazırdakı park və xiyabanları əhatə edib. Parkların ərazisindəki oturacaqlar rənglənib, ümumi səliqə-sahman yaradılıb, ağacların gövdələri ağardılıb. Yeni salınmış yaşıllıq zonalarının daimi suvarılmasını təmin etmək məqsədilə suvarma şəbəkəsi qurulub.

Gündüzlər şəhərə və qəsəbələrə sərinlik gətirən, axşamlar sakinlərə xoş istirahət bəxş edən parklar gecələr də çox gözəl olur. İşıqlandırmanı fasiləsiz təmin etmək məqsədilə istismar müddətini başa vurmuş lampaların yeni və qənaətliləri ilə əvəzlənməsi onları çıraqban edib.

Elə bütün bunların nəticədir ki, rayona gələn turistlərin sayında artım müşahidə olunur. Paytaxt şəhərimizin bir addımlığında yerləşən Abşeron rayonunun qonaq-qarası COP29 günlərində dəfələrlə artacaq. Günəşli Abşeron onları həm də təravətli yaşıllıqlarla, təbii gül-çiçəklə qarşılayacaq.